30 (1336) 1-7 avqust 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymətı razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## PAYTAXTIMIZ GÜNDƏN-GÜNƏ MÜASİRLƏŞİR VƏ ABADLAŞIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda “Gənclik” metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına parkda görülən və həyata keçiriləcək işlər barədə məlumat verib.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda salınan yeni parkdır.

“Antena” parkı kimi tanınan bu ərazi əvvəllər baxımsız vəziyyətdə olub. İstirahət parkının yenidən qurulması və bərpası ilə əlaqədar bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb.

Qeyd olunub ki, parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və həmin binada bərpa işləri aparılacaq.

Yenidən qurulan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunur. Həmçinin burada 2 fəvvarə də quraşdırılacaq. Bu da istirahət məkanına əlavə gözəllik verəcək. Müasir istirahət kompleksinin ərazisinin 13,8 hektarında yaşıllıq sahələri salınacaq. Burada işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulacaq. Parkda piyada və velosiped yolları çəkiləcək, uşaq-əyləncə və idman meydançaları yaradılacaq.

Bildirilib ki, yenidən qurulan parkla yaxınlıqdakı “Dədə Qorqud” parkını əlaqələndirəcək tunelin də inşasına başlanılıb.

Yenidən qurulan park, həmçinin Azərbaycan dövlətinin ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması, o cümlədən “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində gördüyü işlərə daha bir töhfə olacaq.

## HİDAYƏT HEYDƏROV OLİMPİYA ÇEMPİONU OLDU!



İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Paris-2024” XXXIII Yay Olimpiya Oyunlarında parlaq qələbə ilə Olimpiya çempionu adını qazanan cüdoçu Hidayət Heydərova zəng ediblər.

Dövlətimizin başçısı və birinci xanım Olimpiadanın cüdo yarışlarında parlaq qələbə qazanması münasibətilə Hidayət Heydərova təbriklərini çatdırıb, ona gələcək idman fəaliyyətində yeni qələbələr arzulayıblar.

Hidayət Heydərov telefon zənginə və səmimi təbriklərə görə dövlətimizin başçısına və birinci xanıma təşəkkürünü bildirib, Olimpiadada Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmaqdan və Dövlət Himnimizin səsləndirilməsindən qürur duyduğunu vurğulayıb. O, yeni uğurlar əldə etmək üçün bundan sonra da səylə fəaliyyət göstərəcəyini deyib.

* * *

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Hidayət Heydərovun Olimpiya çempionu olması ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:** ***“Əhsən! Əhsən! Əhsən, Hidayət! Təbrik edirəm! Yaşasın Azərbaycan!”.***

## “Azərbaycanın Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi” imzalanıb




İmzalanma COP29-a hazırlıq çərçivəsində keçirilən “Azərbaycanda Yaşıl Tikinti” tədbirində baş tutub.

Bəyannaməni COP29 Təşkilat Komitəsinin bir neçə üzvü və Azərbaycanda fəaliyyət göstərən bir neçə tikinti şirkətinin rəhbərləri imzalayıblar.

Bəyannamənin məqsədi tikinti şirkətlərinin emissiyaların azaldılması məsuliyyətini dərk etdiyini göstərməsidir. Bəyannamə bu istiqamətdə atılan addımın ilk mərhələsidir. Daha sonra isə məsuliyyəti dərk etmək mərhələsindən əməli fəaliyyətə keçid olacaq.

Qeyd edək ki, Azərbaycanın Dayanıqlı Yaşıl Tikinti rəhbərlərinin dəyirmi masa müzakirəsi keçirilir. Azərbaycanın Dayanıqlı Yaşıl Tikinti Rəhbərlərinin Dəyirmi Masa Müzakirəsi baş icraçı direktorlar, nazirlər, BƏƏ-nin tikinti şirkətləri, COP29-un prezidenti və BMT-nin COP29 üzrə yüksək səviyyəli çempionu daxil olmaqla, Azərbaycanın aparıcı sənaye liderlərinin xüsusi yüksək səviyyəli görüşüdür. Bu unikal tədbir çağırışları müzakirə etmək, imkanları araşdırmaq və əlverişli siyasətləri müəyyən etmək məqsədilə platforma təqdim etməklə Azərbaycanın tikinti sektorunda əməkdaşlıq və dayanıqlı inkişafa təkan verəcək.

Dəyirmi masa qlobal iqlim hədəflərinə nail olmaq istiqamətində yaşıl tikintinin mühüm rolunu vurğulayır və COP29-a gedən yolda əhəmiyyətli mərhələyə işarə etməklə Azərbaycan və onun hüdudlarından kənarda ciddi nəticələri olan məqsədyönlü biznes əməliyyatları və əməkdaşlıq üçün zəmin yaradır.

## AZƏRBAYCANIN BAŞ NAZİRİ İRAN PREZİDENTİNİN ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK EDİB




Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Baş nazir Əli Əsədov iyulun 30-da İran İslam Respublikasının yeni seçilmiş Prezidenti Məsud Pezeşkianın andiçmə mərasimində iştirak edib.

* * *

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tehrana işgüzar səfəri çərçivəsində iyulun 31-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə görüşüb.

Baş nazir cari ilin noyabrında Azərbaycanda keçiriləcək COP29-da iştirakla bağlı Prezident İlham Əliyevin dəvət məktubunu Prezident Məsud Pezeşkiana təqdim edib.

Görüş əsnasında Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq əlaqələrinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran əməkdaşlığın bütün istiqamətlər üzrə gələcək perspektivləri müzakirə edilib.

## “COP29 Azərbaycan üçün böyük imkanlar yaradır”

“BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycan üçün böyük imkanlar yaradır. Tədbirdə həm mövcud, həm də gələcək layihələri göstərmək ölkəmiz üçün böyük imkandır”.

Bu sözləri COP29-un müəyyən edilmiş Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev “Azərbaycanda Yaşıl Tikinti” üzrə keçirilən dəyirmi masada söyləyib. Nazir bildirib ki, COP29-a dünyada böyük maraq var. Ona görə də bu istiqamətdə yeniliklər əldə etmək mümkündür.

*“Bakıda, Gəncədə və işğaldan azad olunmuş ərazilərdə nümunəvi tikinti işləri həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə tikinti sahəsində ölkəmizdə böyük yeniliklər tətbiq edilir. Son 5-6 il ərzində şəhərsalmada su təchizatının yaxşılaşdırılması, yaşıllıqların salınması istiqamətində inkişaf var”*, - deyə nazir əlavə edib.

## Azərbaycan hökuməti builki iqtisadi artımla bağlı proqnozlarını artırıb

Azərbaycan hökuməti builki real iqtisadi artım proqnozunu 2.4%-dən 3.8%-ə qaldırıb. İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilmiş proqnozlara əsasən ÜDM 118,4 milyard manat, qeyri-neft/qaz ÜDM 84,2 milyard manat, real artım tempi isə müvafiq olaraq 2,4% və 4,6% səviyyəsində götürülüb.

Trend Maliyyə Nazirliyinə istinadən xəbər verir ki, 2023-cü ildə istehsal edilmiş ÜDM-in ehtimal edildiyindən artıq olması, 2024-cü ilin ilk 6 ayında qeydə alınmış makrofiskal nəticələr, həmçinin qlobal miqyasda iqtisadi artımla və enerji daşıyıcılarının qiymətləri ilə bağlı 2024-cü ilin sonuna gözləntilər cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsini şərtləndirib.

Yenilənmiş proqnozlara əsasən, 2024-cü ildə ÜDM-in real artımının 3,8% olmaqla nominal ifadədə 121,3 milyard manat (dövlət büdcəsinin layihəsinin tərtibi zamanı təqdim edilmiş proqnoza nəzərən 3 milyard manat çox), o cümlədən qeyri-neft ÜDM-nin 84,7 milyard manat (əvvəlki proqnoza nəzərən 0,6 milyard manat çox) olacağı gözlənilir. Qeyd edilib ki, 2024-cü ilin dövlət büdcəsinin hesablamaları üçün 60 ABŞ dolları səviyyəsində qəbul edilmiş xam neftin bir barelinin orta illik ixrac qiyməti dövlət büdcəsinə yenidən baxılma ilə 75 ABŞ dolları səviyyəsinə artırılıb.

Cari ilin yanvar-iyun aylarında qeyri-neft/qaz sektorunda müşahidə edilən artım tempinin ilin növbəti aylarında da davam edəcəyi gözlənilir. Bu əsasla 2024-cü ildə qeyri-neft/qaz sektoru üzrə ÜDM-in real artım tempinə dair proqnoz 4,6%-dən 5,5%-ə qaldırılıb.

# Mərkəzi Bank uçot dərəcəsini növbəti dəfə sabit saxlayıb




Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 7,25 faiz, faiz dəhlizinin aşağı həddi 6,25 faiz, faiz dəhlizinin yuxarı həddi isə 8,25 səviyyəsində dəyişməz saxlanılıb.
Bu qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəflə (4±2%) müqayisəsi, inflyasiya amillərinin dinamikası və risk balansının qiymətləndirilməsi nəzərə alınmaqla qəbul olunub.

# Azərbaycanın strateji valyuta ehtiyatları 69,7 milyard olub



Cari ilin 6 ayında xarici ticarət balansında 4 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb.
Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) açıqladığı faiz dəhlizinin parametrləri haqqında məlumatda bildirilib.
AMB-nin məlumatında əlavə edilib ki, həmin dövrdə ölkənin strateji valyuta ehtiyatları 1.8 faiz artaraq 69.7 milyard dollar olub: "O cümlədən Mərkəzi Bankın valyuta ehtiyatları 1.1 faiz artaraq 11.7 milyard dollara çatıb".

# Bu il inflyasiyanın 5.4 faiz olacağı gözlənilir

***"Cari ilin iyun ayında 12 aylıq inflyasiya 1.1 faiz, baza inflyasiya isə 0.8 faiz təşkil edib. İllik ərzaq inflyasiyası 0.2 faiz, qeyri-ərzaq inflyasiyası 1 faiz, xidmətlər inflyasiyası isə 2.4 faiz olub".*** Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov iyulun 31-də keçirdiyi mətbuat konfransında bildirib.
O deyib ki, mövcud monetar şərtlər inflyasiyanın hədəf diapazonu daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşdirilməsinə yönəlib. Yenilənmiş proqnozlara görə mövcud şərtlərin dəyişməz qalacağı təqdirdə baza ssenari üzrə inflyasiyanın 2024-cü ildə 5.4 faiz, 2025-ci ildə isə 5.5 faiz olacağı gözlənilir.
T.Kazımov həmçinin, bildirib ki, bu il Azərbaycanda iqtisadi artımın 3,5-4 faiz, qeyri-neft-qaz sektoru üzrə ÜDM-in 5,5-6 faiz olacağı gözlənilir. 2025-ci ildə ÜDM-in 2-2,5 faiz, qeyri-neft-qaz sektorunda 4-5 faiz artacağı proqnozlaşdırılır.

# AMB neftin və qazın orta qiyməti üçün proqnozunu açıqlayıb

***"2024-cü il üçün Azərbaycan neftinin orta qiyməti 84.9 dollar, qazın 1000 kubmetrinin isə 296.1 dolları olacağı proqnozlaşdırılır".***
Bu barədə Mərkəzi Bankın sədri Taleh Kazımov iyulun 31-də keçirdiyi mətbuat konfransında deyib. T.Kazımov qeyd edib ki, növbəti ildə neftin orta qiymətinin 83.8 dollar, qazın 1000 kubmetrinin isə 332.5 dollar olacağı nəzərdə tutulur.

# Mərkəzi Bankın rəqəmsal valyuta buraxması ilə bağlı planları açıqlanıb

***"Mərkəzi Bankın rəqəmsal valyuta buraxmaq planı yoxdur".***
Bunu Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov mətbuat konfransında bildirib.
***"Mərkəzi Bank rəqəmsal valyuta ilə bağlı digər ölkələrin təcrübəsini araşdırır. Çünki rəqəmsal valyuta üçün istifadə olunan texnologiya çox vacibdir"***, - deyə T.Kazımov qeyd edib.

# Rəqəmsal ödəniş infrastrukturunun daha da təkmilləşdirilməsi müzakirə edilib



Azərbaycan Mərkəzi Bankın (AMB) sədrinin birinci müavini Rəşad Orucov Azərbaycan Fintex Assosiasiyasının nümayəndələri ilə görüşüb.
AMB-dən bildirilib ki, görüş zamanı rəqəmsal ödəniş sahəsində təhlükəsizliyin və inklüzivliyin təmin olunması, çağırışların effektiv şəkildə aradan qaldırılması, eləcə də infrastrukturun daha da təkmilləşdirilməsi kimi mühüm məsələlər müzakirə olunub.
Həmçinin fintex ekosisteminin inkişafı ilə rəqəmsal ödəniş sistemlərinin genişləndirilməsini şərtləndirəcək strateji təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

# Daha bir şirkət Ağdam Sənaye Parkının rezidenti oldu

Türkiyə kapitallı "Asilsoy" MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib.
İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) bildirilib ki, müəssisədə tava və qazan istehsalı həyata keçiriləcək. İnvestisiya dəyəri 10 milyon manat olan müəssisədə 100 nəfər işlə təmin ediləcək. İstehsal olunan məhsulların daxili bazara satılması ilə yanaşı, ixracı da nəzərdə tutulur. Qeyd edək ki, "Asilsoy" Türkiyədə metal mətbəx əşyalarının istehsalı sahəsində aparıcı şirkətlərdən biridir. Şirkət tərəfindən istehsal edilən məhsullar müxtəlif sifarişçi marka ("Karaca", "Schafer") adları ilə 15-dən çox ölkəyə ixrac edilir.

# SOCAR ilə "Eni S.p.A" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb




Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəf İtaliyanın "Eni S.p.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşüblər.
Görüş çərçivəsində şirkətlər arasında enerji layihələri, enerji təhlükəsizliyi və səmərəliliyi, istixana qazlarının emissiyalarının azaldılması üzrə, həmçinin qaz nəqli infrastrukturları və dayanıqlılıq sahələrində potensial əməkdaşlıq imkanlarını araşdırmaq məqsədilə Anlaşma Memorandumu imzalanıb.
Memoranduma əsasən, tərəflər Azərbaycanda və "Eni S.p.A" şirkətinin əməliyyatlar həyata keçirildiyi ölkələrdə yeni və mövcud apstrim layihələrində sinerji və investisiya imkanlarını, həmçinin milli və beynəlxalq qaz nəqli infrastrukturları, eləcə də istixana qazı emissiyalarını azaldılması üzrə layihələr və texnologiyalar, enerji sənayesində davamlı inkişafı təşviq edən mümkün əməkdaşlıq sahələri ilə bağlı məsələləri nəzərdən keçirəcəklər.
Görüşdə memorandumun şirkətlərin dekarbonizasiya strategiyalarına uyğun olduğu vurğulanıb və sənədin bu istiqamətdə görülən işlərə mühüm töhfə verəcəyi bildirilib.
Söhbət zamanı SOCAR ilə "Eni S.p.A" şirkəti arasında səmərəli əməkdaşlıq imkanları nəzərdən keçirilib və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# SOCAR-ın Türkiyədəki neft emalı zavodunda təyyarə yanacağının istehsalı artıb



2024-cü ilin may ayında Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki STAR neft emalı zavodunda aviasiya yanacağının istehsalında 2023-cü ilin həmin ayı ilə müqayisədə 13,6 faiz artım müşahidə olunub.
Trend xəbər verir ki, Türkiyə Enerji Bazarlarının Tənzimlənməsi İdarəsi (EPDK) məlumatına görə, 2024-cü ilin mayında zavod 125 650 ton aviasiya yanacağı istehsal edib. 2023-cü ilin mayında bu rəqəm 110 576 ton olub.
Xatırladaq ki, COVID-19 pandemiyası ilə əlaqədar məhdudiyyətlər səbəbindən aviasiya yanacağına tələbat azaldıqda STAR 1,6 milyon ton aviasiya yanacağının istehsalı üçün nəzərdə tutulmuş istehsalat gücünü operativ olaraq yeni istiqamətə - dizel yanacağının istehsalına yönəltdi. Məhdudiyyətlər aradan qaldırıldıqdan sonra zavod artan tələbatı qarşılamaq üçün aviasiya yanacağının istehsalını bərpa etdi.
Ümumi dəyəri 6,3 milyard ABŞ dolları olan STAR zavodu 2018-ci ilin oktyabrında işə salınıb. Layihə xərclərinin təqribən 3,3 milyard dolları borc vəsaitlərinin hesabına qarşılanıb.
STAR zavodunun illik emal gücü 10 milyon tona yaxındır. Zavod gündəlik 214 min barel xam neft emal etmək gücündədir.

# "Azərbaycanda dayanıqlı yaşıl tikinti ilə bağlı hesabat hazırlanacaq"



"İqlim dəyişikliyi qarşımızda duran ən çətin məsələlərdən biridir. Biz qabaqcıl təcrübələrimizi sizinlə paylaşmaq istəyirik".
Bu sözləri İqlim Çempionları Komandasının baş məsləhətçisi Alida Saleh COP29-a hazırlıq çərçivəsində "Azərbaycanda Yaşıl Tikinti" mövzusunda keçirilən dəyirmi masada deyib.
Onun sözlərinə görə, iqlimin təsirləri hazırda müşahidə olunmaqdadır.
***"Vacib məsələlərdən biri budur ki, istilik emissiyalarını yaradan amilləri aradan qaldıraq və enerji səmərəliliyini yüksəldək. Bu prosesdə ədalətli keçid olmalıdır. Tikinti sektorunun ətraf mühitə böyük təsiri var. Bu, olduqca vacib sektor hesab olunur. Binalar emissiyaların 20 faizini, eyni zamanda, enerji təchizatının 40 faizini təşkil edir. Biz elə dayanıqlı həllərə baxmalıyıq ki, ətraf mühitə xeyirli olsun. Azərbaycanda yeni memarlıq layihələri məni yaxşı mənada heyrətləndirdi. Eyni zamanda, deməliyik ki, hökumətin özəl sektora da ehtiyacı var. Özəl sektorun ambisiyası və baxışı dövlətlə üst-üstə düşür. Azərbaycanda dayanıqlı yaşıl tikinti ilə bağlı hesabat hazırlayacağıq və bu, COP29-dan sonra da davam edəcək"***,- deyə Alida Saleh bildirib.

# "Bütün istixana qazlarının 40 faizdən çoxu məhz şəhərlərdə istehlak olunur"



"Son dövrlərdə iqlim dəyişikliyi dünyanı düşündürən qlobal problemlər sırasındadır. Hazırda dünya əhalisinin yarıdan çoxu şəhərdə yaşayır və bu artmaqda olan tendensiyadır".
Bu sözləri Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev COP29-a hazırlıq çərçivəsində "Azərbaycanda Yaşıl Tikinti" mövzusunda keçirilən dəyirmi masada deyib.
O bildirib ki, bu da yaşıl məkanların və biomüxtəlifliyin azalmasına səbəb olur, insanların rifahına təsir göstərir.
"Bütün istixana qazlarının 40 faizdən çoxu məhz şəhərlərdə istehlak olunur. Tikinti sənayesi iqtisadi və sosial inkişaf baxımından ən vacib fəaliyyət sahələrindən biridir. Orta hesabla karbon emissiyasının 37 faizdən çoxu bu sektorun payına düşür. Tikinti sektoru ətraf mühitə təsir edən əsas sahələrdən biridir. Binalar dünyanın təbii ehtiyatların 50 faizdən 70 faizə qədərini ehtiva edir", - deyə Anar Quliyev vurğulayıb.
O əlavə edib ki, Azərbaycanda qlobal çağırışlara uyğun sənayenin bütün sahələrində ətraf mühitin qorunması, enerji səmərəliliyi və təbii resurslardan optimal istifadənin tətbiqi ilə bağlı mühüm addımlar atılır: ***"Ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və Azərbaycanın COP sammitinə ev sahibliyi etməsi ölkəmizin qlobal iqlim dəyişkənliyinə qarşı mübarizədə qətiyyətli olduğunu bir daha sübut edir".***

# Ölkəmizdə ilk sənaye partlayıcı maddələrinin istehsalı zavodu tam rejimdə fəaliyyətə başlayıb






Gəncədə "AzerGold" QSC-nin törəmə şirkəti – "AzerBlast" MMC tərəfindən istifadəyə verilən ilk sənaye partlayıcı maddələrinin istehsalı zavodu tam rejimdə fəaliyyətə başlayıb.

İyulun 27-də iqtisadiyyat naziri Mikayıl Cabbarov, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi, "AzerGold" QSC-nin Müşahidə Şurasının sədri Mətin Eynullayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, Harvard Kennedi Məktəbinin professoru Xuan Ximenez və Harvard Beynəlxalq İnkişaf Mərkəzinin Laboratoriyasının tədqiqatçıları müəssisənin fəaliyyəti ilə tanış olublar.

Dövlət-özəl tərəfdaşlıq modeli əsasında təsis olunan "AzerBlast" MMC ölkəmizdə mülki partlayıcı maddələrə artan tələbatın qarşılanması, idxaldan asılılığın aradan qaldırılması məqsədilə yaradılıb. "AzerBlast" MMC-nin ümumi paylarının 51 faizi "AzerGold" QSC-yə, 49 faizi isə bu sahə üzrə ixtisaslaşmış özəl şirkət "DM Servis" MMC-yə məxsusdur.

Zavodda dağ-mədən və inşaat sənayesində istifadə olunan ANFO (quru mühitdə istifadə üçün nəzərdə tutulan partlayıcı növü) və H-ANFO (nəm mühitdə istifadə üçün nəzərdə tutulan partlayıcı növü) partlayıcı maddələrinin test rejimində istehsalı həyata keçirilir.

15 hektar ərazidə inşa edilən müəssisənin təməli 2023-cü ilin yanvar ayında qoyulub. Layihənin kapital qoyuluşu 11 milyon, ümumi investisiya dəyəri isə 15 milyon manatdır. Sözügedən vəsait dövlət büdcəsinə əlavə yük yaratmadan, "AzerBlast" MMC-nin təsisçiləri tərəfindən təmin edilib. Zavodun Gəncə şəhərində inşa edilməsində məqsəd ölkəmizin əsas dağ-mədən sənaye mərkəzinə yaxınlıqda, həmçinin beynəlxalq nəqliyyat dəhlizinin üzərində yerləşməsidir.

İlkin mərhələdə 35 nəfərlik işçi heyəti ilə işə başlayacaq müəssisədə iş yerlərinin sayının 65 nəfərədək artırılması nəzərdə tutulub.

Zavodun tam rejimdə fəaliyyətə başlaması ilə sənaye təyinatlı partlayıcı maddələrə tələbat yerli istehsal hesabına təmin ediləcək və idxaldan asılılıq aradan qaldırılacaq. Belə ki, fəaliyyətin ilkin mərhələsində zavod yerli tələbat və ixrac potensialı qiymətləndirilməklə illik 14000 ton ANFO və H-ANFO partlayıcı maddələrinin istehsalını həyata keçirəcək. Qarabağ və Şərqi Zəngəzurun dağ-mədən sənayesi üzrə mövcud potensialı, genişmiqyaslı tikinti layihələri, həmçinin geniş ixrac potensialı nəzərə alınaraq, növbəti mərhələdə zavodun illik istehsal həcminin 31500 tona çatdırılması planlaşdırılır.

Zavodun istehsal xəttində Türkiyənin "HTD Kimya və Mühendislik A.Ş" şirkətinin texnoloji dizaynı, Almaniya, Böyük Britaniya və Türkiyə istehsalı olan avadanlıqlardan istifadə edilib, yerli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğun texniki təhlükəsizlik tam təmin olunub, istehsalat yüksək ekoloji norma və standartlara cavab verən şəkildə təşkil edilib.

# Şagirdlərin beynəlxalq riyaziyyat olimpiadası təhsilimizin güzgüsüdür



Riyaziyyat təhsil sisteminin ən mühüm fənnidir. Bu şəxsiyyətin formalaşmasında riyaziyyat fənninin müstəsna rolu ilə əlaqədardır. Bu fənnin potensialı çox böyükdür.

***Puasson: "Həyat yalnız iki şey üçün gözəldir: riyaziyyatı kəşf etmə və öyrətmə".***

Riyaziyyat məlumu naməlumdan fərqləndirməyi, təhlil aparmağı, təsnif etməyi, fərziyyə irəli sürməyi öyrənir.

Riyaziyyat həm də dünyanın elmi mənzərəsini dərk etmək yoludur. Bu fənn təxəyyülün, rasional düşüncənin, fikirlərin ifadə üsullarının inkişafına kömək edir.

***Pifaqor: "Riyaziyyatın yüksək vəzifəsi bizi əhatə edən qarmaqarışıqlıqlar içərisində gizlənən nizamı tapıb üzə çıxarmaqdır".***

Riyaziyyatda səhvi gizlətmək mümkün deyil. Riyaziyyatda nəticənin düzgünlüyünə dair aydın meyarlar var: dürüstlük, obyektivlik və ədalət.

Riyaziyyat ölkənin innovasion inkişafında da mühüm rol oynayır.

20-ci əsrdə ölkəmizdə güclü riyaziyyat məktəbi yaranmışdı. Uzun illər ərzində ölkəmizdə riyaziyyatın məktəbdə tədrisi keyfiyyətli olub. Amma son illər ölkəmizdə reallaşan uğursuz təhsil islahatları nəticəsində bütün fənlərin tədrisi kimi, riyaziyyatın da tədris keyfiyyəti xeyli zəiflədi. Məktəblilərin riyaziyyat fənni üzrə beynəlxalq olimpiadalarda göstərdiyi nəticələr də ilbəil aşağı düşür. Sonuncu riyaziyyat olimpiadasındakı nəticə isə utancvericidir. Belə ki, dünyanın ən nüfuzlu beynəlxalq riyaziyyat olimpiadasının növbəti mərhələsi başa çatıb.

Bu ərəfədə İngiltərədə keçirilən 65-ci Beynəlxalq Riyaziyyat Olimpiadasının (İMO) nəticələri açıqlandı. Təəssüf ki, bu, bizim təhsilimizin son 30 ildə ən uğursuz nəticəsi idi.

140-dan çox ölkə üzrə 75-ci yeri qazanmışıq. Ötən ilki nəticə bu ilkinə nəzərən daha uğurlu olmuşdu - 54-cü yer. Bu il isə komanda hesabında 21 pillə geriləmişik.

Bəzi həmkarlarım bu məlumatı gözlənilməz hadisə, sensasiya kimi qarşılayır. Əslində isə bu nəticə təhsilimizin indiki durumunun gözlənilən təbii nəticəsidir.

Məlum olduğu kimi BMT İP mütəmadi olaraq ölkələr üzrə təhsilin durumunun qlobal reytinqini hazırlayır. Biz bu reytinqdə 85-ci yerdəyik. Bu halda beynəlxalq riyaziyyat olimpiadasında 75-ci yerdə olmağımız təbiidir. Bu, 25 illik sistemsiz və elmsiz "təhsil islahatı"nın acı və təbii nəticəsidir. Təhsildəki faciəli durumla bağlı həyəcan təbilini çalmağın vaxtı çoxdan çatıb.

Biz artıq 20 ildir bunu edirik.

P.S. İngiltərədə keçirilən "Riyaziyyat üzrə şagirdlərin beynəlxalq olimpiadası"nda uşaqlara 6 məsələni həll etmək təklif edilib. Bu məsələlər həmçinin süni intellektə də təqdim edilib. Sİ 6 məsələdən 4 məsələni həll edə bilib: 2 məsələ cəbrdən, 1 məsələ həndəsədən, 1 məsələ isə ədədlər nəzəriyyəsindən.

Sİ-nin həll edə bilmədiyi 2 məsələ kombinatorikaya aid olub.

Sİ-nin topladığı bal gümüş medal səviyyəsindədir.

Google əməkdaşları bildirirlər ki, əvvəllər Sİ belə riyazi məsələləri həll edə bilmirdi. Çünki riyazi məsələləri həll etmək üçün mücərrəd təfəkkür və mürəkkəb planlama tələb olunur. Artıq Sİ bu məsələləri də həll edə bilir.

**Dos. İlham Əhmədov,**
**ADPU**

# Daşkəsəndə qiymətli metal emalı zavodu tam rejimdə işə salınıb



"AzerGold" QSC-nin Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) inşa olunan Çəndə Qələviləşdirmə Zavodu tam rejimdə işə salınıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi, "AzerGold" QSC-nin Müşahidə Şurasının sədri Mətin Eynullayev, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Orxan Abbasov və "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov ÇİRES-də qiymətli metal filizlərinin çəndə qələviləşdirmə (CIL – Carbon in Leach) texnologiyası ilə emalını həyata keçirəcək zavodun fəaliyyəti, eləcə də "Çovdar" mədənində hasilat və tullantıların idarə olunması prosesi ilə tanış olublar.

Tanışlıq səfərində, həmçinin Harvard Kennedi Məktəbinin professoru Xuan Ximenez və Harvard Beynəlxalq İnkişaf Mərkəzinin Laboratoriyasının tədqiqatçıları iştirak ediblər.

Zavod Daşkəsən və Göygöl rayonlarında yerləşən qızıl mədənlərindən hasil edilən qiymətli metal filizlərinin emalında səmərəliliyin daha da artırılması məqsədilə inşa edilib. "AzerGold" QSC tərəfindən zavodla bağlı layihənin icrası üçün tələb olunan 383 milyon manat vəsait daxili imkanlar hesabına təmin edilib. Bölgədə əhalinin məşğulluğunun artırılmasına töhfə olan layihənin icrası ilə daha 101 daimi iş yeri yaradılıb. Bununla da "Çovdar" layihəsi çərçivəsində regionda məşğulluğa cəlb edilən vətəndaşların sayı 2400 nəfərə yaxınlaşıb.

2017-ci ildən "Çovdar" qızıl mədənində hasilata başlayan "AzerGold" QSC yataqda geniş geoloji tədqiqatlar aparıb. Nəticədə, qızıl mədəninin ehtiyatları artırılıb, "Ağyoxuş" qızıl yataqları qrupu və "Mərəh" qızıl yatağı kəşf edilib. Ötən əsrin 80-ci illərində potensial filizləşmə zonası kimi müəyyən edilmiş "Tülallar" qızıl yatağı isə müasir dövrün tələblərinə uyğun olaraq geniş tədqiq olunub. Bununla yanaşı, qeyd edilən hər üç yataq istismara verilib. "Çovdar" mədənində oksid filizləri ilə yanaşı, tranzit və sulfid filizləri hesabına satıla bilən qızıl ehtiyatı 179 min unsiyadan 609 min unsiyayadək artırılıb, mədənin istismar müddəti 2029-cu ilədək uzadılıb. Cinahlarda yerləşən mədənlər hesabına isə ümumi qızıl ehtiyatı 778 min unsiyaya çatdırılıb.

2020-ci ildə qiymətli filizlərin emalı prosesində maddi-texniki resurslardan mərkəzləşdirilmiş qaydada istifadə məqsədilə Çovdar Filiz Emalı Sahəsinin bazasında ÇİRES təşkil edilib. Ümumi sahəsi 535 hektar olan regional emal sahəsində inşa edilən yeni zavodun təyinatı filiz emalının optimal texnoloji üsulla həyata keçirilməsidir. İllik 1,1 milyon ton filizüyütmə potensialına malik zavodun fəaliyyəti nəticəsində filizlərin tərkibindən və metallurji xüsusiyyətlərindən asılı olaraq qızılın 90%-dək alınması təmin olunacaq.

Layihənin icrası zamanı bütün təhlükəsizlik normalarına ciddi riayət olunub. Layihə üzrə istehsalın ekoloji norma və standartlara uyğunluğu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən təsdiqlənib. Zavodda işçilərin sağlamlığı və əməyin təhlükəsizliyi üçün müvafiq idarəetmə sistemi qurulub.

ÇİRES-də çəndə qələviləşdirmə texnologiyası Böyük Britaniya şirkətinin hazırladığı texnoloji dizayn əsasında layihələndirilərək, Koreya şirkəti tərəfindən inşasına nəzarət həyata keçirilib. Türkiyə şirkətinin əsas podratçı qismində iştirakı ilə inşa edilən, Almaniya, İsveç, İsveçrə, Kanada və Türkiyə istehsalı olan müasir avadanlıqlarla təchiz olunan zavod və köməkçi infrastruktur obyektləri ümumilikdə 22 ay ərzində tam hazır vəziyyətə gətirilib.

Yeni zavodun tam gücü ilə fəaliyyətə başlaması regional sosial-iqtisadi inkişafa, qiymətli metalların ixrac potensialının artmasına töhfə verəcək.

# "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyi "Universitetlərin rəqabət qabiliyyəti mövzusunda maarifləndirici dəyirmi masaların təşkili" adlı layihənin icrasını davam etdirir

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin verdiyi kiçik qrant hesabına "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyi "Universitetlərin rəqabət qabiliyyəti mövzusunda maarifləndirici dəyirmi masaların təşkili" adlı layihənin icrasına başlamışdır. Məlumdur ki, bizim universitetlər 20 ildir ki, universitetlərin qlobal reytinqlərində çox zəif nəticələr göstərirlər. Çünki universitetlərimiz qlobal təhsil bazarında rəqabətədavamlı deyil. Bunun bir çox səbəbləri var. Təcrübə göstərir ki, bizim universitetlər nəinki rəqabətədavamlı deyil, hətta bəzi universitetlərdə "ali təhsil müəssisəsinin rəqabət qabiliyyəti nədir?" sualına birqiymətli cavab verə bilmirlər. Bu səbəbdən universitetlərdə belə bir mövzuda maarifləndirici dəyirmi masaların keçirilməsinə ehiyac var. Dəyirmi masalarda universitetlərin rəqabət qabiliyyəti nədir, universitetlərin rəqabət qabiliyyətliliyi meyarları, rəqabət üstünlükləri, niyə universitetlərimiz rəqabət qabiliyyətli deyil və s. kimi məsələlər müzakirə ediləcəkdir.

Layihə rəhbəri "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyinin təsisçisi, təhsil eksperti, dosent İlham Əhmədovdur.

SDU-da təşkil olunan dəyirmi masa yüksək səviyyədə keçdi.

Ölkənin bir neçə universitetində belə tədbirlərin təşkili nəzərdə tutulur.

# Böyükşor gölü üzərində pilot günəş enerjisi qurğusu istismara verilib



Energetika Nazirliyi və Asiya İnkişaf Bankı (AİB) tərəfindən həyata keçirilən "Üzən günəş panelləri sisteminin inkişafına dair bilik mübadiləsi və texniki yardım" layihəsi çərçivəsində Böyükşor gölü üzərində ümumi gücü 100 kVt olan günəş enerjisi qurğusunun açılış mərasimi keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev karbon emissiyalarının azaldılması və iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal səylərə ölkəmizin töhfələrindən danışıb.

C.Abdullayev Prezident İlham Əliyevin bərpa olunan enerjidən istifadənin inkişafını prioritetləşdirən dövlət siyasətinə müvafiq olaraq reallaşdırılan meqa layihələrə diqqət çəkib, Qaradağ Günəş Elektrik Stansiyasının istismara verilməsi ilə cari ilin 6 ayında günəş enerjisi istehsalında 8 dəfədən çox artım qeydə alındığını söyləyib.

***"95 kilovatı suda, 5 kilovatı quruda quraşdırılan layihə vasitəsilə illik 160 min kilovat-saatdan çox elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Layihə özəl investisiyaların cəlb olunması üçün çağırış rolunu oynayır və artıq genişləndirilməsi ilə bağlı müzakirələrə start verilib",*** - deyən C.Abdullayev bu qurğunun su hövzəsi üzərində istismara verilən ilk günəş elektrik qurğusu olduğunu bildirib.

# Avropanın iki böyük bankı Rusiyanı tərk etmək barədə qərar qəbul edib



Avstriyanın "Raiffeisen Bank International" (RBI) və İtaliyanın "UniCredit" bank qrupları Rusiyadakı bizneslərini dayandırmaq və ölkəni tərk etmək planları barədə qərar qəbul ediblər.

Bu barədə "Vedomosti" qəzeti məlumat yayıb.

Müvafiq planlar şirkətlərin hesabatlarında əks etdirilib. "UniCredit" ilin sonuna qədər Rusiyadakı biznesini əhəmiyyətli dərəcədə azaldacaq, "Raiffeisenbank" isə 2026-cı ilə qədər ölkədəki kredit portfelini 65 faiz azaldacaq.

Bundan əlavə, hər iki bank qrupu Rusiya ilə maliyyə əlaqələrini minimuma endirmək və yerli bazardan tamamilə çıxmaq üçün müvafiq strateji addımlar atacaq. Banklar, həmçinin müştərilərin və əməkdaşların hüquqlarını qorumaq üçün xüsusi tədbirlər həyata keçirməyi planlaşdırır.

Bu qərarlar Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar və geosiyasi gərginliyin artması fonunda qəbul edilib. Həm "Raiffeisen Bank International", həm də "UniCredit" Rusiyadan çıxış prosesinin uzunmüddətli və mürəkkəb olacağını etiraf edib.

# ABŞ Ermənistanın Rusiyadan uzaqlaşması üçün şərait yaradır

"ABŞ Ermənistanın Rusiya ilə ənənəvi möhkəm münasibətlərindən uzaqlaşmasına şərait yaratmağa çalışır".

Bunu ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn bildirib. O, Senatın Xarici Əlaqələr Komitəsində çıxış edərək Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya ilə münasibətlərdən uzaqlaşmaq üçün atdığı cəsarətli addımları təqdir edib.

"Ermənistan əhalisinin böyük bir hissəsi Rusiyadan uzaqlaşmaq istəyir. Buna görə də biz (Amerika hakimiyyəti - Qeyd) bunun baş verməsi üçün şərait yaradırıq".

# "Bakcell"in dəstəyi ilə qadınlar üçün İKT üzrə təlimlər başladı

"Bakcell" şirkətinin dəstəyi ilə qadınların İKT üzrə bilik və bacarıqlarının artırılmasına yönəlmiş xüsusi təqaüd proqramı davam edir. Proqram çərçivəsində iki ay müddətində baş tutacaq ixtisas təlimlərinə start verilib.

"Maya Hacıyeva adına İKT bacarıqları" təqaüd proqramı "Women in Tech" (WIT) beynəlxalq təşkilatı və Təhsilin İnkişafı Fondunun (TİF) birgə təşkilatçılığı, "Bakcell" şirkətinin dəstəyi ilə həyata keçirilir. Seçim mərhələsini uğurla keçmiş 15-45 yaş aralığında olan xanımlar iki ay ərzində UX/UI dizayn, kibertəhlükəsizlik, rəqəmsal marketinq və digər ixtisaslara yiyələndikdən sonra işlə təmin olunacaqlar.

***"Təqaüd proqramına dəstək göstərməkdə əsas məqsədimiz Azərbaycan xanımları arasında informasiya texnologiyaları sektoruna dair məlumatlılıq səviyyəsini yüksəltmək, onları gələcəkdə bu sahə üzrə karyera qurmağa həvəsləndirməkdir. Şirkətimiz özünü inkişaf etdirməyə həvəsli olan xanımlara hər zaman dəstək göstərməyə hazırdır"***, - deyə "Bakcell"in baş icraçı direktoru Klaus Müller bildirib.

Azərbaycanın ilk riyaziyyatçı qadın alimi Maya Hacıyevanın adına olan təqaüd proqramı 2023-cü ildə təsis edilib. Proqramın məqsədi cəmiyyətin inkişafında bilavasitə rolu olan qadınların gələcəyin peşələrinə yiyələnərək, iqtisadi azadlıqlarını əldə etmələrinə, öz arzularını reallaşdırmağa dəstək göstərməkdir.

Qadınların təhsil və məşğulluq imkanlarının artırılması "Bakcell" şirkətinin korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. Şirkət bu sahədə təşəbbüsləri dəstəkləməyi və daha da genişləndirməyi planlayır.

# "Bakcell" ilə "Dream Fest" həyəcanı baş tutub

Ölkənin ən böyük özəl operatoru "Bakcell" "Dream Fest" Beynəlxalq Musiqi Festivalının premium sponsoru olub. Festival ərzində iştirakçılar "Bakcell" stendinə yaxınlaşaraq şirkətin yeni və innovativ məhsulları barədə məlumat alıblar, xüsusi hədiyyələr qazanmaq imkanı əldə ediblər. Bundan əlavə, şirkət festivalda çıxış edən dünya ulduzlarına "Bakcell" nömrələri təqdim edərək, onları ölkəmizdə olduqları müddətdə yüksəkkeyfiyyətli mobil rabitə xidmətləri ilə təmin edib.

Qeyd edək ki, 23-28 iyul tarixlərində baş tutan "Dream Fest" festivalı ABŞ, MDB və Avropa İttifaqı, Böyük Britaniya, Kanada və Türkiyə kimi ölkələrdən 100-ə yaxın müğənninin çıxışı ilə yadda qalıb. Altı gün ərzində tamaşaçılar Xəzər dənizi sahilində açıq havada möhtəşəm şou və musiqidən həzz alıblar.

Qeyd edək ki, gələcəyə hədəflənən yeni brend strategiyası ilə "Bakcell" ölkəmizdə abunəçilərə innovativ xidmət və məhsullar təqdim edir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verəcək.




**ETİBARSIZDIR**

**Azərbaycan Respublikası Milli Məclisi İşlər müdiri xidmətinin Nəqliyyat məsələləri sektorunun baş mütəxəssis – sürücüsü Məmmədov Rəşad Zakir oğluna məxsus IX-55/İİ nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

# Kamran Beydullayev: "Əsas problem ondan ibarətdir ki, hepatit C ilə yaşayan insanların əksəriyyəti bundan xəbərsizdir"

***Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, yoluxucu qaraciyər xəstəliyi hər il bir milyon yarım insanın həyatına son qoyur. Virus hepatitlərinin diaqnostikası, müalicəsi və profilaktikası problemi XXI əsrdə də aktual olaraq qalır.***

İyul ayının 28-i bütün dünyada Ümumdünya Hepatitlə Mübarizə Günü kimi qeyd olunur. Ümumdünya Hepatitlə Mübarizə Gününün məqsədi dünya həkimlərini hepatit viruslarına qarşı mübarizə səylərini gücləndirməyə çağırır. Həmin gün əsas diqqət hepatitin müxtəlif formaları barədə maarifləndirmənin gücləndirilməsinə yönəldilir.

***Bu münasibətlə hazırda virus hepatitlərinin profilaktikası və müalicəsinin mövcud yolları barədə məlumat almaq üçün Mərkəzi Gömrük Hospitalının ümumi cərrahı, transplantoloq Dr.Kamran Beydullayevə müraciət etdik.***

**- Kamran həkim, ilk növbədə, hepatit haqqında məlumat verməyinizi xahiş edirəm.**

- Hepatit əsasən qaraciyəri məhv edən və bütövlükdə orqanizmə mənfi təsir göstərən virus xəstəliyidir. Qaraciyər bədənimizdə çox vacib bir orqandır və viruslu hepatit yalnız qaraciyərə təsir etmir, o, həm də insanın bütün həyatını məhv edə bilər. Bu, ümumi qaraciyər sağlamlığınıza diqqət yetirməyin vacib olduğunu göstərir. Yəni, viruslu hepatitlərin qarşısının alınması, diaqnostikası və müalicəsi ilə yanaşı, qaraciyərə də diqqət yetirmək lazımdır – spirtli içkilər istehlakının miqdarını azaltmaq, siqaretdən imtina etmək, arıqlamaq və arterial hipertoniya və şəkərli diabet kimi digər qeyri-infeksion xəstəliklərin müalicəsi ilə vaxtında məşğul olmaq məsləhətdir. Yəni qaraciyərin sağlamlığına daha kompleks yanaşmaq lazımdır.

**- Hepatitin əlamətləri hansılardır? İnsan xəstə olduğunu necə başa düşə bilər?**

- Hepatiti olan insanların təxminən 80%-i xroniki hepatiti olduğunun fərqinə belə varmır. Əvvəlcə heç bir aşkar əlamətlər olmur - kimsə özünü yorğun hiss edə bilər, lakin bu, indiki vaxtda o qədər adi bir şeydir ki, insanlar bunu hər hansı bir xəstəliyə aid etməkdənsə, çox vaxt həddindən artıq işləmək ilə əlaqələndirirlər. Hepatit də oynaqlarda ağrı, qaraciyər nahiyəsində narahatlıq və s. yarada bilir.

Baxın, müayinə zamanı xəstənin qaraciyər testləri mükəmməl ola bilər, lakin o, qan verməyi planlaşdırır və nəticədə hepatit diaqnozu qoyulur. Bu vəziyyətdə xəstəlik o qədər də aktiv şəkildə özünü göstərmir, ancaq "yatmış" bir formada olur.

Qaraciyərin zədələnmə faizi genetikadan asılıdır. Hepatitli biri 20 il yaşaya bilər və qaraciyəri mükəmməl vəziyyətdə olacaq, digəri isə 10 ildən sonra sirroz xəstəliyinə tutulacaq. Təəssüf ki, bunu proqnozlaşdırmaq mümkün deyil.

Onu da qeyd edim ki, hepatit xəstələrində olan əlamətlər digər xəstəliklərdə olan əlamətlərlə oxşardır. Ona görə də, bəzən səbəbsiz olaraq bədən temperaturunun yüksəlməsi, dərinin saralması, qaraciyərin böyüməsi insanları dərhal həkimə müraciət etmək üçün bir siqnal olmalıdır. Sarılıq hepatitin ən çox müşahidə edilən əlamətidir. Lakin sarılıq olmadan da müayinələr zamanı bu xəstəlik aşkarlanır. Bəzən hər hansı müayinə, analiz verilərkən pasiyentdə özünün də xəbəri olmayan hepatit virusu aşkarlanır.

**- Hepatitin növləri barədə nə deyə bilərsiniz? Hər biri haqqında qısaca məlumat verə bilərsiz?**



- Dünyada hepatitin 5 növü – A, B, C, D və E mövcuddur. Onlar bir-birindən xəstəliyin ötürülməsi yolları ilə fərqlənir. Hepatit A və hepatit E qida infeksiyası sayılır və yuyulmamış meyvələr, çirkli əllərlə digər insanlara ötürülür. Heç vaxt səyahət edərkən qatarlarda, otellərdə və ya kirayə evlərdə krandan gələn suyu, su hövzələrində, çaylarda, bulaqlarda axan suları içməyin. Meyvə və tərəvəzləri yalnız yuduqdan sonra istifadə edin. Hepatit A şəxsi gigiyenanın pozulduğu zaman və ya meyvə-tərəvəzləri yuyulmadan istifadə etdikdə, həmçinin, təmiz olmayan su vasitəsilə ötürülür və heç vaxt xroniki formaya keçmir və bütün hallarda sağalır.

Qanla yoluxan hepatit B və C növlərinin müalicəsi daha çətindir. Digər hepatitlərdə olduğu kimi, hepatit C də həm parental-venadaxili infuziya yolu ilə, transplasentar - anadan körpəyə yoluxma yolu ilə keçə bilər.

Hepatit B, C və D isə qan vasitəsilə ötürülən infeksiyadır.

"Səssiz qatil" adlandırılan hepatit C xəstəliyi uzun müddət orqanizmdə qalır və sonradan ciddi fəsadlara səbəb olur. Əvvəlcə fəal başlayan xəstəlik əksər hallarda səssiz və lal gedişi ilə müşahidə edilir. Aktiv hepatit C keçirən xəstələrin 15-20 faizi tamamilə normal vəziyyətə qayıtsa da, xəstələrin çoxunda hepatit C virusu qandan təmizlənmir və xroniki hala çevrilir, lakin heç də bütün hallarda sirroza keçmir. Ancaq onların təxminən 20 faizində qaraciyər sirrozu və ilk infeksiyadan 30-40 il sonra, hətta 40 yaşdan yuxarı xəstələrdə hepatit C mənşəli xərçəngə çevrilir.

Qida və heyvanlar vasitəsilə ötürülə bilən Hepatit E də var. Həm pişiklər, həm də itlərdən ötürülə bilər. Əgər pişiyiniz vaxtaşırı gəzintiyə çıxırsa və onun bir neçə gündür qusduğunu görsəniz, ev heyvanınızın qaraciyər parametrlərini yoxlamaq üçün baytarınızla əlaqə saxlamaq daha yaxşıdır. Əgər baytar hepatitdən şübhələnərsə, pişik hepatit E üçün test edilməlidir. Və bu cür hepatiti pişiyinizdən ala bilərsiniz. Nadir hallarda olsa da, bu baş verir.

**- Hepatitlərə yoluxmamaq üçün nə etmək lazımdır?**

- Hepatitlərə yoluxma çox vaxt gözəllik salonlarında, tatu edilərkən, bədənin hər hansı nahiyəsində pirsinqlər (qulaqda, burunda, göbəkdə və s. dəliklərin açılması), stomatoloqların iş kabinetlərində baş verir. Xəstəliyə yoluxmamaq üçün steril şpris və iynələrdən, tatuaj və pirsinq zamanı birdəfəlik iynə və əlcəklərdən, dezinfeksiya olunmuş alətlərdən, şəxsi gigiyena vasitələrindən fərdi qaydada istifadə etmək lazımdır.

B, C və D hepatitləri əsasən qanla digər şəxslərə ötürülür. Bu, qeyri-steril tibb alətləri vasitəsilə baş verir. B hepatiti anadan uşağa asanlıqla keçə bilir.

Ona görə də, hepatitin profilaktikası metodları, hər şeydən əvvəl, doğulandan 60 yaşa qədər gigiyena qaydalarına riayət etməkdir. B və C hepatitləri fərdi gigiyena qaydalarına riayət etmədikdə, dişlərin gigiyenasına, üz və yuyunma dəsmallarının təmizliyinə riayət etmədikdə asanlıqla bir şəxsdən digərinə ötürülür. Çox vaxt qaraciyər sirrozu və ya qaraciyər xərçəngi yaradır.



**- Son vaxtlar hepatitin müalicəsində irəliləyiş varmı?**

- Son on ildə biz hepatit B və C-nin müalicəsi baxımından çox sürətli irəliləyişlərin şahidi olduq. Xüsusilə, Hepatit C hazırda 95 faizdən çox hallarda tam müalicə oluna bilən yeganə xroniki virus infeksiyasıdır. Demək olar ki, hazırda mövcud olan yeni dərmanlar, birbaşa təsir göstərən virusa qarşı dərmanlarla cəmi 12 həftə ərzində tam sağalmağa nail olmaq olar. Bu, bizə hepatit C-ni tam məhv etməyə imkan verir.

Bu nailiyyətlərə baxmayaraq, əsas problem ondan ibarətdir ki, hepatit C ilə yaşayan insanların əksəriyyəti bu barədə bilmir, ona görə də insanların hepatitlər haqqında məlumatlılığının, diaqnostika və müalicə imkanlarının artırılması vacibdir.

**- Kamran həkim, hepatitlərin müalicəsi varmı? Bu xəstəlikdən tam sağalmaq mümkündürmü?**

- Əlbəttə ki, virus hepatitlərinin profilaktikasının əsas yolu vaksinasiyadır. Hazırda dünyada vaksinasiyanın iki növü mövcuddur: virus hepatiti A və virus hepatiti B-yə qarşı olan vaksinlər. B virus hepatitinə qarşı vaksinasiya peyvəndlər təqviminə daxil edilir və insanları vaxtında peyvəndlərə dəvət edir.

Hepatit, virusa qarşı müalicə ilə aradan qaldırılır. Xəstəlikdən şübhələndikdə dərhal infeksionistə müraciət etmək lazımdır. Hepatitin profilaktikası üçün vaksinasiya mütləqdir. Yenidoğulmuşlara ilk vaksinlər elə doğum evlərində vurulur, sonradan isə 55 yaşa qədər vaksinasiya üçün tibb müəssisələrinə müraciət etmək lazımdır.

Vaxtında həkim müdaxiləsi olmazsa, müalicə alınmazsa, yeganə yol olan qaraciyərin transplantasiyasına qərar verilir.

**- Maraqlı müsahibə üçün təşəkkür edirik.**

**Müsahibəni apardı:**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**